***Günay QARAYEVA***
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*e-mail: gunaygarayeva@gmail.com*
*https://doi.org/10.59849/2309-7922.2025.2.120*

# FOLKLORDAN GEOLOGIYAYA. MİLLİ İDENTİKLİYIN İNTERDİSSİPLİNARLIĞI (X.YUSİFZADƏNİN GÖRÜŞLƏRİ ƏSASINDA)

**Xülasə**

Folklor, xalq yaradıcılığı yalnız ədəbiyyat sahəsi olaraq məhdudlaşmır, fərdin əxlaqi-estetik baxışlarının, zövqünün, fəlsəfi görüşlərinin formalaşmasında əsas rol oynayır. İstedadlı şəxsiyyət, akademik Xoşbəxt Yusifzadənin geologiya elminin, Azərbaycan neft sənayesinin inkişafında xidmətləri danılmazdır. Lakin geniş bilgiyə, dünyagörüşünə, elmi erudisiyaya malik olması, onun geologiya ilə yanaşı, ədəbiyyata, söz sənətinə mənən, ruhən bağlılığından irəli gəlir. Molla Nəsrəddin lətifələrinin mahir bilicisi olan, ədəbiyyata xüsusi həssaslıqla yanaşan, xalq hikmətinin incəliklərinə, dərin laylardan keçən müdrikliyinə varan X.Yusifzadə həyatının elə məqamı yoxdur ki, o bu anları Molla Nəsrəddin lətifələri ilə canlandırmasın. Bu bağlılıq onun xarakterinə də yansımış, ona həlimlik, müdriklik gətirməklə yanaşı, ətrafında xoş ovqat yaratmaq, gərgin situasiyaları aradan qaldırmaq xüsusiyyəti aşılamışdır. X.Yusifzadə ədəbiyyatın həvəskar oxucusu, lətifələrin, şifahi söz sənətinin mütaliəçisi deyildi. Bu hikmətli xəzinə müdrikliyi, fəlsəfi yükü ilə onun həyat, yaşam devizi, baməzəliyi, şirinliyi, güclü yumor hissi, gülüşü ilə daxili-psixoloji aləminin güzgüsü olmuşdur. Məqalədə X.Yusifzadənin ədəbiyyata, folklora, Molla Nəsrəddin lətifələrinə bağlılığı, ədəbiyyatın şəxsiyyətin formalaşmasındakı rolu şərh olunur.

**Açar sözlər:** Xoşbəxt Yusifzadə, ədəbiyyat, folklor, milli identiklik, Molla Nəsrəddin lətifələri

***Gunay GARAYEVA***

## FOLKLORE AND GEOLOGY: THE INTERDISCIPLINARITY OF NATIONAL IDENTITY (BASED ON KH.YUSIFZADEH'S VIEWS)

**Summary**

Folklore, as part of folk creativity, is not limited to the field of literature but plays a fundamental role in shaping an individual's moral-aesthetic views, tastes, and philosophical outlook. The talented personality, academic Khoshbakht Yusifzadeh, made undeniable contributions to the development of geology and Azerbaijan's oil industry. However, Khoshbakht Yusifzadeh's extensive knowledge, worldview, and scholarly erudition stemmed from his deep connection to literature and the art of words. An expert in Molla Nasreddin's

anecdotes, with a special sensitivity to literature, Yusifzadeh appreciated the subtleties of folk wisdom and the profound layers of its philosophical insights. There was no moment in his life where he didn't bring these moments to life with Molla Nasreddin's jokes. This connection reflected in his character, bringing him gentleness and wisdom, as well as an ability to spread a cheerful atmosphere and resolve tense situations. Yusifzadeh was not merely a casual reader of literature or an observer of anecdotes and oral traditions; the treasure of wisdom in these works, with its philosophical depth, became his life's motto, characterized by playfulness, sweetness, a strong sense of humor, and laughter—revealing the psychological world within him. This article discusses the role of literature and folklore, especially Molla Nasreddin anecdotes, in shaping Yusifzadeh's personality and their influence on the formation of national identity.

**Keywords**: Khoshbakht Yusifzadeh, literature, folklore, national identity, Molla Nasreddin anecdotes

***Гюнай ГАРАЕВА***

**ФОЛЬКЛОР И ГЕОЛОГИЯ: ИНТЕРДИСЦИПЛИНАРНОСТЬ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ (НА ОСНОВЕ ВЗГЛЯДОВ Х. ЮСИФЗАДЕ)**

**РЕЗЮМЕ**

Фольклор, народное творчество не ограничивается только областью литературы, а играет основную роль в формировании морально-эстетических взглядов, вкусов и философских убеждений личности. Талантливая личность, академик Хошбехт Юсифзаде, имеет неоспоримый вклад в развитие науки геологии и нефтяной промышленности Азербайджана. Однако обширные знания, мировоззрение и научная эрудиция Хошбехта Юсифзаде исходят из его духовной и моральной связи с литературой и словесным искусством. Являясь мастером в области анекдотов Моллы Насреддина, с особым чувством подходившим к литературе, проникшим в тонкости народной мудрости и глубокие слои философской мудрости, Х. Юсифзаде не знал момента в своей жизни, когда бы он не оживил эти моменты с помощью анекдотов Моллы Насреддина. Эта связь также отразилась на его характере, принесла ему мягкость и мудрость, а также способность создавать атмосферу доброжелательности и разрешать напряженные ситуации. Х. Юсифзаде был не просто любителем литературы, читателем анекдотов и устного слова; это мудрое сокровище, с философским содержанием, стало девизом его жизни, отличающимся игривостью, сладостью, сильным чувством юмора и смехом, что стало зеркалом его внутреннего психоэмоционального мира. В статье рассматривается приверженность Х. Юсифзаде к литературе, фольклору, анекдотам Моллы Насреддина и роль литературы в формировании личности.

**Ключевые слова**: Хошбехт Юсифзаде, литература, фольклор, национальная идентичность, анекдоты Моллы Насреддина

Azərbaycanın neft sektorunun inkişafında xüsusi xidmətləri olan, hələ sağlığında canlı əfsanəyə çevrilən akademik Xoşbəxt Yusifzadə Xəzərin əbədi qəhrəmanlarından biri olmuşdur. Görkəmli geoloq ömrünün 70 ilini Azərbaycan neft sənayesinin inkişafına həsr etmiş, nəzəri-praktik təcrübəsi sayəsində Xəzər dənizində 20-dən çox neft və qaz yataqları aşkar edilərək istifadəyə verilmiş, Azərbaycanın iqtisadi inkişafında, beynəlxalq arenada tanınmasında əhəmiyyətli rol oynamışdır. “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının kəşf edilməsi və bunun nəticəsi olaraq Azərbycanın neft və qaz sektorunda əldə etdiyi nailiyyətlər, “Əşrəfi”, “Qarabağ”, “Şahdəniz” qaz – kandensat, “Abşeron”, “Ümid” kimi əlverişli yataqların kəşf olunması əfsanəvi neftçi Xoşbəxt Yusifzadənin adı ilə bağlı olmaqla yanaşı, onun dövlətimizə, xalqımıza xidmət göstəricisidir. Bütün bu nailiyyətlərinə görə hələ sağlığında əfsanələşən qəhrəman “canlı əfsanə”, “Neftçi rəmzi”, “neft sənayesinin qocaman fatehi” kimi adlarla əbədi yaşarılıq hüququ qazanmış, Azərbaycan neft sənayesinin simvoluna çevrilmişdir.

Öz istedad və bacarığı ilə sayılıb-seçilən Xoşbəxt Yusifzadənin incəsənətin ayrı-ayrı sahələrinə xüsusi marağı olmuş, hələ kiçik yaşlarından məktəbdə təşkil olunan dram dərnəyinə rəhbərlik etmiş, gah rejissor, gah da aktyor qismində Ə.Haqverdiyevin “Bəxtsiz cavan”, S.Vurğunun “Vaqif” dramlarında baş rolları oynamışdır. Daim axtarışda olmaq, öyrənmək, öyrəndiklərini çevrəsində tətbiq etmək marağı onun lap uşaq yaşlarından hərtərəfli inkişafına təkan vermişdir. Azərbaycan klassiklərindən M.F.Axundzadə, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, M.S.Ordubadi, M.Ə.Sabir, C.Cabbarlı ilə yanaşı L.Tolostoy, F.Dostoyevski, Cek London və b. dünya klassiklərinin əsərlərini mütaliə etmiş, incəsənətin müxtəlif sahələrinə maraq onun bir şəxsiyyət kimi bədii-estetik zövqünün formalaşmasında önəmli rol oynamışdır. Folklora, xalq ədəbiyyatına bağlılıq Xoşbəxt Yusifzadənin insani keyfiyyətlərində, danışıq dilinin yumor və baməzəliyində də nəzəri cəlb etmişdir. Bununla yanaşı ədəbiyyatçılarla ünsiyyət, gördüyü, şahidi olduğu, diqqətini çəkən hər hansısa ədəbi məsələyə anında münasibət bildirmək, dəyərləndirmək onun ədəbiyyata sevgisindən və vətəndaşlıq borcundan irəli gələn məqamlardan idi. X.Yusifzadə oçerk və məqalələrində yazıçıya və əsərə qiymətini elə ümumiləşdirir ki, sanki peşəkar tənqidçi möveyindən çıxış edir. M.Ə.Sabir, M.S.Ordubadi, S.Vurğun, və b. sənətkarların yaradıcılıq özəlliklərini, üslubi xüsusiyyətlərini səciyyələndirərkən fikirlərini ümumiləşdirərək yazır: “...hər yazıçının və ya şairin özünəuyğun yaradıcılıq xüsusiyyəti və üslubu vardır. Bu da oxucuların təsəvvüründə müəyyən iz buraxır. Məsələn, S.Vurğunu oxuyanda Vətənə, xalqa məhəbbətin birə on artır. Mirzə Ələkbər Sabiri oxuyanda inqilabdan əvvəl çarizmin və yerli bəylərin, xanların zülmü altında inləyən xalqın məşəqqətli həyatı gözlərin qarşısından acı bir səhnə kimi gəlib keçir. Nikolay Ostrovskinin romanları oxucunun iradəsini möhkəmləndirir, mübarizliyini artırır..... Ordubadinin

romanlarını oxuyanda isə həm tarixçiyə, həm siyasətçiyə, həm də milli-mənəvi dəyərlərimizi yüksək qiymətləndirən şəxsə çevrilirsən" (1, s. 103-104).

1960-70-ci illər Azərbaycan şair və yazıçıları neftçilərlə tez-tez görüşür, onların əməyini, fəaliyyətini gündəmə gətirir, qabaqcıl neftçilər və o zaman xüsusi diqqət kəsb edən əfsanəvi Neft daşlarının əzəmətini əks etdirən şeir nümunələri, poema və romanlar yazırdılar. Bütün bunlar neftçilərin əməyinə verilən qiymət və dəyərin göstəricisi olmaqla yanaşı o zamanlar Mərkəzi Komitənin birinci katibi Heydər Əliyevin siyasətinin əsas prioritetlərindən biri idi. 1972-ci ildə M.S.Ordubadinin 100 illik yubileyində məruzəçi kimi X.Yusifzadənin seçilməsi də bu baxımdan təsadüfi xarakter daşımırdı. Bu məsələyə xüsusi diqqət yönəldən X.Yusifzadə yazır: ".....bunlar həmin o müxtəlif peşə sahiblərində estetik zövqün, gözəllik duyumunun formalaşmasına kömək edən bədii sözə və incəsənətə daim maraq doğuran amillərdir. Başqa sözlə, söhbət insanın hərtərəfli inkişafından gedirdi və bu işin də sistemli şəkildə həyata keçirilməsinin təşəbbüsçüsü ümummilli liderimiz Heydər Əliyev idi" (1, 105).

Ədəbiyyat Xoşbəxt Yusifzadənin əsas peşə sahəsi olmasa da, lakin bu sahə ilə bağlı bilgiləri onun yalnız istedadının göstəricisi deyildi, həm də xarakterinə rəng qatan yumor hissinin, baməzəliyin nümunəsi idi. Xalq deyimlərindən, "Molla Nəsrəddin" lətifələrindən yerli-yerində, vəziyyətə uyğun olaraq istifadə etmək ustalığı özünü və həmkarlarını gərgin situasiyadan çıxarmaq, müəyyən bir vəziyyətə aydınlıq gətirmək işində ona daim yardımçı olurdu.

X.Yusifzadə xalq ədəbiyyatımızın, atalar sözü və məsəllərin, "Molla Nəsrəddin" lətifələrinin mahir bilicisi idi. Hər bir vəziyyətə, situasiyaya uyğun lətifələr işlətmək, insanlarda xoş ovqat yaratmaq, gərgin vəziyyəti yüngülləşdirməyi bacarırdı. Həyatının müxtəlif anlarında "Molla Nəsrəddin" lətifələri ilə səsləşmələr və eləcə də onu öz həyat tarixçəsinə daxil etmək bacarığı X.Yusifzadənin bir tərəfdən xalq sənətinə bağlılığından irəli gəlirdisə, digər tərəfdən bu söz, hikmət xəzinəsi bütünlüklə onun xarakterinə, ruhuna yanasmasında diqqət çəkirdi. Hələ uşaqlıq illərində musiqi istəyi olsa da, tar çalmaq arzusunu reallaşdıra bilməmiş və musiqi sahəsinin onun istedad qaynağı olmadığını dərk etmişdir. Həmin məqamı təsəvvürdə daha aydın ifadə etmək üçün tar çalmağını Molla Nəsrəddin lətifələrinə müraciət edərək yazır: " Bir dəfə Molla Nəsrəddindən soruşurlar ki, Molla tar çala bilirsən? Cavab verir ki, əlbəttə bilirəm. Verirlər tarı ona. O da başlayır guya ki, tar çalmağa. Bir əlinin barmaqları ilə mizrabı tutur, o biri əlinin barmağını isə tarın pərdələrindən birinin üstünə qoyub, başlayır aləti dınqıldatmağa. Camaat görür ki, Molla barmağını həmin o pərdənin üstündə saxlayıb, tərpətmir. Soruşurlar ki, Molla, niyə barmaqlarını pərdələrin üstündə gəzdirmirsən, elə saxlamısan bir pərdənin üzərində? Molla cavab verir: – O adamlar əllərini pərdələrin üzərində gəzdirirlər ki, onlar barmaqlarını saxlamağın yerini bilmirlər. Mən isə o yeri əvvəlcədən tapmışam, ona görə də əlimi tərpətməyə ehtiyac yoxdur" (1, 19-20). Molla Nəsrəddin lətifələri hələ gənc yaşlarında sevdiyi qızla arasında yaranan sərin münasibəti aradan qaldırmaq, xarici qonaqlarla mötəbər görüşlərdə yaranan

namünasibliyi, xoşagəlməz hadisəni dəf etmək, ən ciddi məqamlarda belə müdrikliyə, sadəliyə sığınaraq ovqatı dəyişmək bacarığı X.Yusifzadənin Cəlil Məmmədquluzadə sənətinə, Molla Nəsrəddin lətifələrinin müdriklik fəlsəfəsinə bağlılığından irəli gəlirdi.

Akademikin 70 illik yubiley mərasimində haqqında səslənən xoş sözlər və təriflər qarşısında heyrətlənən X.Yusifzadə C.Məmmədquluzadə ilə bağlı maraqlı bir fakt əsasında yarnmış vəziyyətə münasibət bildirir. Bütün çıxışçılara səmimi üzürhaxlıq etirafından sonra X.Yusifzadə deyir: "....siz məni o qədər təriflədiniz ki, yadıma Cəlil Məmmədquluzadə ilə bağlı bir əhvalat düşdü. Bir gün Cəlil Məmmədquluzadə tələbəsi ilə öz əsərinə qulaq asmağa gedir. Əsərin ortasında qayıdıb tələbəsinə deyir ki, bu əsəri kim yazıb? Tələbəsi cavab verir ki, necə yanı kim yazıb, – müəllim, siz yazmısınız. Cəlil Məmmədquluzadə deyir ki, mən yazmışamsa, belə yazmamışam. Artistlər əsərə o qədər əlavələr ediblər ki, tanıya bilmədim" (1, 217).

Xoşbəxt Yusifzadə ədəbiyyata, xalqın hikmət xəzinəsinə bağlı insan idi. Bu onun mənəvi tələbatı, əsas həyat kredosu idi. Elə bu səbəbdəndir ki, ümumtürk ədəbiyyatının ortaq qəhrəmanı olan Molla Nəsrəddinin gülüş doğuran, düşündürücü, müdrik, məntiqli lətifələri onun dilinin əzbəri olmuşdur. Psixoloji, daxili-ruhu ovqatından asılı olmayaraq (istər xoş, istərsə də kədərli olsun) elə bir hadisə, situasiyaya uyğun hal-hərəkət yox idi ki, Xoşbəxt müəllim ona uyğun lətifə işlətməsin. Bu onun təkcə dilinə, xarakterinə şirinlik, baməzəlik gətirməklə bitmir, ətrafındakı gərginliyi aradan qaldırmaq xoş ovqat yaratmaq missiyası idi. 2018-ci ildə "Molla Nəsrəddin lətifələri" adlı bir toplu çap olunub. Kitab akademik X.Yusifzadənin "Bəşəri müdrikliyin Molla Nəsrəddin zirvəsi" adlı ön sözlə başlanır. X.Yusifzadə sosial-iqtisadi baxımından beynəlxalq miqyasda tanınan Azərbaycanın yalnız neft və qaz sənayesi, iqtisadi yönümdən deyil, mədəniyyəti, musiqisi, idmanı, folkloru, ədəbiyyatı, bir sözlə mədəni-mənəvi irsi ilə dünya miqyasında seçilən yer tutduğunu qeyd edirdi. O fikirlərini geoloq kimi əsaslandıraraq yazırdı: "Şifahi xalq yaradıcılığı, folklor milli mədəniyyət sisteminin olduqca mühüm bir hissəsini, geoloji terminlə ifadə etsək, daha dərin layını təşkil edir. Ən zəngin təbii sərvətlər torpağın dərin qatlarında toplandığı kimi, ən qiymətli mənəvi dəyərlər də mədəniyyətimizin alt qatı, özülü, əsası olan folklorda, şifahi xalq yaradıcılığında cəmləşmişdir. Bu, təbiət və mədəniyyət strukturları arasında mövcud olan heyrətamiz bir harmoniyadır. Biz minbir əziyyət hesabına təbii sərvətlərimizi yerin dərin qatlarından çıxarıb, onu ölkənin iqtisadi generatoruna çeviririk. Hesab edirəm ki, biz eyni bir səfərbərlik və ciddiyyətlə mənəvi sərvətlərimizə də sahib çıxmalı, mədəniyyət nümunələrində əks olunan dəyərləri müasir ictimai fikir dövriyyəsinə daxil etməliyik" (2, 4-5).

Dövlətin sosial-iqtisadi inkişafı və mədəni-mənəvi bütövlüyünü eyni müstəvidə götürən, onları bir-birindən ayırmayan akademik folkloru "milli identikliyin əsas göstəricilərindən biri" hesab edirdi. Dərin tərbiyəvi məzmuna malik, xalq hikməti, müdrikliklə zəngin folklor örnəklərinə xüsusi önəm verən X.Yusifzadə

onu dərin biliklər toplusu hesab edərək yazırdı: "Folklor özündə dərin tərbiyəvi məzmun daşımaqla yanaşı, xalqımızın min illər ərzində topladığı təcrübə və ətraf aləm haqqında biliklər, deyim və duyumlar Azərbaycan cəmiyyətində tarixən formalaşmış ictimai münasibətlər barədə zəngin informasiya bankı funksiyasını da yerinə yetirir. Heç təsadüfi deyildir ki, Azərbaycan folklorunun təbliğ etdiyi dəyərlər milli olduğu qədər də ümumbəşəridir. Burada vətən və millət sevgisi ilə insan və bəşəriyyət sevgisi vahid bir harmoniya təşkil edir" (2, 5). Atalar sözü və məsəllərimiz, hikmətli sözlər, Dədə Qorqud hikməti, Koroğlunun qəhrəmanlıq və igidliyi, Molla Nəsrəddin lətifələrindəki gülüş, satira və yumor hissini xalq müdrikliyinin təzahürü hesab edərək xalqın əsrlər boyu yaşatdığı, nəsillərdən-nəsillərə keçərək əbədi yaşarılıq qazandığı bu hikmət boğçasının milli-mənəvi dəyərlərə malik yeni nəslin formalaşması, təlim-tərbiyəsi, əxlaqi kamilliyi, milli-mənəvi bütövlük və dəyərlərə malik vətəninə, elinə, ulusuna sadiq vətəndaşın yetişməsində əvəzsiz məxəz hesab edirdi. Folklora, onun dərin qatlarında saxlanılan, qorunan müdrikliyi, hikməti yalnız mənəvi, mədəni zənginlik, estetik imkanların genişliyi səviyyəsində məhdudlaşdırmır, ona daha fəlsəfi mövqedən yanaşır, milli şüurun, milli kimliyin təsbitində, qorunması və bu gündən gələcəyə ötürülməsində vacib mənbə kimi dəyərləndirirdi: "Xüsusən indiki müasir qloballaşma şəraitində –müxtəlif mədəniyyətlər və ideologiyalar arasında məsafələrin, sərhəd və maneələrin aradan qalxması ilə əlaqədar olaraq, milli kimlik üçün təhlükə və təhdidlərin yarandığı bir vaxtda zəngin folklor xəzinəsində qorunub saxlanılmış dəyərlərin, ideya və çağırışların bugünkü ictimai milli şüur dövriyyəsinə daxil edilməsi ümummilli əhəmiyyət kəsb edir. Bu mənada folklor çoxlarının təsəvvüründə olduğu kimi, yalnız bizim keçmişimiz deyil, həm də bu günümüz və gələcəyimizdir!" (2, s. 6).

Xalq hikmətindən, müdrikliyindən gələn Molla Nəsrəddin lətifələri X.Yusifzadənin dilinin əzbəri olmaqla yanaşı, həm də onun intellekt və fərdi zövq mənbəyi idi. Akademik bütün xalqların ədəbiyyatında düşündürən, heyrətləndirən lətifə qəhrəmanlarının olduğunu qeyd edir, onların içərisində yayılma arealının genişliyi, hikməti, müdrikliyinin dərinliyi baxımından Molla Nəsrəddinə xüsusi önəm verirdi. Bəs akademikin "unikal folklor fenomeni" adlandırdığı Molla Nəsrəddində diqqətini çəkən, onu fərqləndirən xüsusiyyət nə idi? Xoşbəxt Yusifzadə bu suala özünün məzmunlu ön sözündə cavab taparaq yazırdı: "Bu unikal lətifə qəhrəmanı zaman və məkan baxımından da heç bir sədd və sərhəd tanımır. Bu lətifələrdə ifadə olunan müdriklik, varlıq, insan, dünya haqqında fikirlərin fəlsəfi dərinliyi bəşəriyyətin ən mötəbər fəlsəfi təlim və konsepsiyaları ilə müqayisə oluna biləcək unikallığa və universallığa malikdir" (2, 7). Molla Nəsrəddin bu lətifələr öyrədici, düşündürücü funksiya daşıyır. Bu bir-birinə ilk baxışda zidd görünən, əslində isə əsl mahiyyətin bu təzadlıqdakı təzahürü lətifələri əsas modelə çevirirdi. Həyatının bütün məqamlarında Molla Nəsrəddin lətifələrinə müraciət edən, istər həmkarları, istərsə də, nisbətən daha yüksək dairədə, məmurlar, dövlət nümayəndələri içərisində gərginliyi aradan qaldırmaq, mətləbi aydın şəkildə ifadə etməklə öz fikir və düşüncələrini ətrafa daha aydın şəkildə başa salan akademik bütün

məqamlarda bu hikmət boğçasından faydalanmışdır. Molla Nəsrəddin lətifələri akademikin həyat təcrübəsində yalnız fikir və düşüncələrini qarşı tərəfə daha aydın şəkildə başa salmaq üçün deyil, həm də özünü gərgin vəziyyətdən çıxarmaq, ətrafındakı qaranlığı işıqlandırmaq, xoş ovqat yaratmaq, mətləbi daha aydın, dolu şəkildə anlatmaq marağından irəli gəlirdi. Yəni Molla Nəsrəddin lətifələrini Xoşbəxt Yusifzadə öz müdrikliyinə qataraq onu mətbəx mühitindən, dar aləmdən çıxararaq daha məzmunlu statusa sahibləndirmişdir. Həyatında rastlaşdığı gərgin situasiya, çıxılmaz vəziyyətdən çıxış yolu kimi hadisəyə uyğun məqamları seçməklə həm özünün, həm də ətrafının aurasını dəyişmiş, gərginliyi aradan qaldırmışdı. Dəfələrə neft hasilatının azalması, yeni quyuların istismarı, qazılan quyuların gözlənilən nəticəni doğurmaması, bir sözlə, yaranan mübahisəli, gərgin vəziyyətlərdə xalq hikmətinin xəzinəsi olan Molla Nəsrəddin lətifələrinə üz tutan X.Yusifzadə gətirdiyi misallar, Mollanın başına gələn sərgüzəştləri müasir zamana tətbiq etməklə maraqlı, yaddaqalan vəziyyətlərə yol açmışdır. Bu haqda akademikin dilindən dəfələrlə maraqlı məqamlarla bağlı baş verən hadisələrə münasibət bildirilmişdir: “1976-cı ildə Moskvanın Kreml sarayında SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıginin yanında keçirilən müşavirədə neft sənayesinin problemləri müzakirə və təhlil edilirdi. Müşavirədə keçmiş İttifaqın bütün neft birliklərinin rəisləri, SSRİ Neft Sənayesi Nazirliyinin, Dövlət Plan Komitəsinin, elmi-tədqiqat və layihə institutlarının rəhbərləri iştirak edirdilər. O vaxt neft sənayesində gərgin və mürəkkəb bir vəziyyət yaranmışdı, bu da hasilatın azalması ilə nəticələnə bilərdi. Sovet rəhbərliyi isə buna yol verə bilməzdi, çünki SSRİ kimi nəhəng bir dövlətin həyatı neft amilindən çox asılı idi. Azərbaycandan müşavirədə “Xəzərdənizneftqaz” Ümumittifaq Sənaye Birliyinin rəisi Ələkbər Süleymanov iştirak etməli idi. O isə məzuniyyətə çıxmışdı. Buna görə də respublikanın rəhbərliyi müşavirəyə məni göndərmişdi (O vaxt mən “Xəzərdənizneftqaz” birliyi rəisinin müavini – Birliyin baş geoloqu idim). Müşavirədə A.N.Kosıginin giriş sözündən sonra SSRİ Neft Sənayesi Nazirliyi istehsalat birliklərinin rəhbərləri çıxış etməyə başladılar. Kosigin onların sözünü tez-tez kəsib, suallar verirdi. O, çox ciddi və işini bilən adam idi, hər bir məsələnin kökünə gedib çıxırdı. SSRİ Nazirlər Sovetinin sədri çıxış etmək üçün mənə də söz verdi. Əvvəlki natiqlərdən fərqli olaraq, mən kağıza baxmadım, “sinədən” danışmağa başladım. Deyəsən, bu, Aleksey Nikolayeviçin xoşuna gəldi və suallar verərək, sanki mənimlə söhbət etməyə başladı. Əvvəlcə soruşdu, “Son illərdə dənizdə neft hasilatı nə üçün azalır?”

Cavab verdim ki, dənizin dərinliyi 40 metrə qədər olan sahələrində neft ehtiyatı tükənib. Suyun dərinliyi 40 metrdən çox olan sahələrdə isə böyük ehtiyata malik neft yataqları var, amma o yerlərdə işləyə bilmirik. Əvvəla, müvafiq texnikamız və maliyyə vəsaitimiz yoxdur, lakin bunlar olsa belə həmin sahələrə gedə bilmirik.

Bu yerdə A.N.Kosıginin mənə təəccüblə baxdığını görüb dedim:

– Bir dəfə Molla Nəsrəddin sancağını itirir. Evdən çıxıb, sancağı küçə qapısında axtarmağa başlayır. Yoldan keçənlər maraqlanıb soruşurlar ki, "Molla, nə axtarırsan?" Molla deyir ki, sancağımı. Sonra onların arasında belə bir dialoq olur.

– Sancağı harada itirmisən?

– Evdə.

– Evdə itirmisənsə, burada niyə axtarırsan?

– Bilirsiniz, evin içi qaranlıqdır, orada heç nə tapa bilmərəm, amma bura işıqlıdır və axtarmaq asandır.

İndi Aleksey Nikolayeviç, dənizdə o yerlər ki, işıqlıdır, yəni o yerlər ki, işləmək üçün üzümüzə açıqdır, orada işimizi görmüşük və görürük. Amma o yerləri ki, sərhədçilər, balıqçılar neftçilərin üzünə bağlayıblar, o yerlər bizim üçün Molla Nəsrəddinin evi kimi qaranlıqdır. Həmin yerlərdə axtarış-kəşfiyyat işləri aparmaq, yeni yataqlar kəşf etmək mümkün deyil, çünki bizi oralara buraxmırlar". Müşavirənin iştirakçıları çaşıb qalmışdılar. A.N.Kosıgin kimi son dərəcə ciddi bir hökumət başçısının keçirdiyi müşavirədə Molla Nəsirəddin lətifəsi! Bu, görünməmiş bir iş idi və yəqin ki, salondakıların əksəriyyətinə elə gəlirdi ki, A.N.Kosıgin qəzəblənəcək, belə bir sərbəstliyə görə mənə həddimi bildirəcək.

O isə sakitcə soruşdu:

– Yaxşı, dənizdə sizi o böyük sahələrdə işləməyə buraxmayanlara təzyiq edə bilmirsiniz?

Mən də elə o şəkildə sakitcə cavab verdim:

– Aleksey Nikolayeviç, indiyədək gücüm çatdığı qədər təzyiq etmişəm, lakin istədiyim nəticəni almamışam. İndi vaxt çatıb ki, onlara Siz təzyiq edəsiniz.

Kosıgin gülən adam deyildi. Amma mənim bu sözlərimdən sonra həm o, həm də bütün zal güldü. Mən isə ürəyimdə Allahdan Molla Nəsrəddinə yenə rəhmət dilədim" (1, 154).

**Nəticə:** X.Yusifzadə geoloq, qabaqcıl neftçi idi və ömrünü neft sənayesinin inkişafına həsr etmiş, fədakarlığı, istedadı, peşəkarlığı ilə həm Sovet dönəmində, həm də müstəqillik illərində neft sənayesinin inkişafı sahəsində əvəzsiz xidmətləri ilə seçilən yer tutan şəxsiyyətlərdən olmuşdur. Lakin istedad sərhəd tanımır. Onun peşəkarlığı, əzmkarlığı, daim öz üzərində işləmək, axtarışda olmaq, neft sənayesinə, özünün bağlı olduğu sahəyə marağı ilə məhdudlaşmamışdır. Folklora, ədəbiyyata, xalqımızın əbədiyaşar ənənələrinə, milli-mənəvi dəyərlərinə bağlılıq X.Yusifzadənin ədəbiyyata, söz sənətinə bitib-tükənməyən sevgisi, marağı ilə də fərqlənmiş, seçilən yer tutmuşdur.

## ƏDƏBİYYAT

1. Yusifzadə X. Ömrümün illəri və izləri. Bakı, Oskar, 2010, 284 s

2. Yusifzadə X. Bəşəri müdrikliyin Molla Nəsrəddin zirvəsi (ön söz). Molla Nəsrəddin lətifələri. Bakı: "Sabah", 2018, 450

3. İsgəndərzadə Etibar. Azərbaycan neftçisinin rəmzi. https://modern.az/news/326393/